# ÜZEYİR HACIBƏYLİ - 135



**Üzeyir bəydən sitatlar:**

*«Şərq musiqisindən ibarət olan milli musiqimizin tərəqqisi yolunda elmi, fənni, nəzəri və əməli surətdə çalışmaq məsələsinin təqib etdiyi böyük məqsəd budur ki, musiqinin elmi əsaslarını arayıb tapıb, bu əsaslar üzərində musiqimizin tərəqqisinə çalışmaq və onu həqiqətən nəcib və nəfis bir sənəti-aliyyə məqamına yetirib, bu yolla ümum üçün yeni bir mənbəyi-zövq və mənşəyi-feyz açmaqla Azərbaycan türkləri tərəfindən mədəniyyət və insaniyyətə xidmətlər göstərmək...»*

*«Mən xalq musiqisini əsaslı surətdə öyrənməyincə böyük əsərlər yazmağa tələsməmişəm.»*

*«Azərbaycan musiqisini öyrəndikdə və ondan istifadə etdikdə muğam sisteminə, Azərbaycan musiqisində olan və çox böyük rol oynayan canlı muğamlara xüsusi diqqət verilməlidir. Çalışmaq lazımdır ki, bu muğamlar öz sərbəst əhəmiyyətlərini itirməsinlər. Mən şəxsən inanmışam ki, biz Azərbaycan muğamlı musiqini intensiv şəkildə işləməklə muğam incəsənətini ən yüksək səviyyəyə qaldıra bilərik.»*

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Milli Musiqi Günü ilə bağlı etdiyi paylaşımdan:

"Milli Musiqi Günü münasibətilə Azərbaycan musiqisinin qorunub saxlanılması, inkişaf etdirilməsi və dünyada tanıdılması naminə əlindən gələni əsirgəməyən hər kəsə səmimi təbriklərimi yetirir, onlara bu işdə böyük uğurlar və nailiyyətlər arzulayıram. Bu gün 135 illiyini qeyd etdiyimiz görkəmli Azərbaycan bəstəkarları Üzeyir Hacıbəylinin və Müslüm Maqomayevin əziz xatirəsini ehtiramla yad edirəm. Arzu edirəm ki, milli musiqimiz öz ənənələrini qoruyub saxlayaraq yeni səslərlə, yeni ifalarla və yanaşmalarla daim zənginləşsin!".

## TELEFESTİVAL

Bu il bəstəkar, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq, ictimai xadim, müasir Azərbaycan peşəkar musiqi sənətinin banisi Üzeyir bəy Hacıbəylinin 135 illik yubileyinə həsr edilmiş festival və 18 sentyabr - Milli Musiqi Günü COVİD-19 pandemiiyası səbəbindən bərqərar olmuş karantin rejiminə görə teleyayım formatında keçirildi. Sentyabrın 18-dən 30-dək Mədəniyyət Nazirliyi və Az.Tv-nin «Mədəniyyət» kanalının birgə layihəsi olaraq keçirilən telefestivalın proqramı ötən illərin festivallarının konsertlərindən ibarət idi.

## ...VƏ O MÜNBİT YER ƏLÇATAN OLDU...

Biz mədəniyyət yazarları sentyabr ayını xüsusi şövqlə gözləyirik. Yeni mədəniyyət, incəsənət mövsümünün ilk tədbirlərindən biri Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı artıq on iki ildir ümumilikdə çağdaş mədəniyyət tariximizin parlaq hadisələri kimi yadda qalıb. Peşəkar Azərbaycan musiqisinin banisinin adını daşıyan Bakı Musiqi Akademiyasının qarşısındakı abidəsinin ətrafında hər Üzeyir Festivalının ilk tədbirini açan «Koroğlu» operasından Uvertüra bu il nəhayət gerçək ovqatına vardı - sentyabrın 27-si başlanan Azərbaycan Vətən Müharibəsinin gedişatı şanlı ordumuzun, müdrik Ali Baş Komandanın, şəhidlərin sayəsində Qafqazın konservatoriyası adlandırılan, Azərbaycan mənəviyyatının şah damarı Şuşaya qayıtmağımızın mümkünlük ehtimalını inandırıcı dərəcədə artırdı.

Və Üzeyir bəyin «biz elə bir münbit yer hazırlamalıyıq ki, gələcək adamlarımızın əmin-arxayın yaşayıb da getdikcə tərəqqi və təkamülünə böyük bir təkan olsun» sözlərinin ən dolğun gerçəkliyini lap yaxın etdi. ❖

**Samirə Behbudqızı**